# İDMAN

www.azsport.az

Qəzet 1932-ci ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNİN ORQANI

№ 19 (7114) | *14 sentyabr 2021-ci il* | Qiyməti 40 qəpik


## Prezident İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.***

Dövlətimizin başçısı qəbulda çıxış edib.

***Prezident İlham Əliyevin çıxışı***

- Siz gənclər və idman naziri vəzifəsinə təyin edilirsiniz, sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız. Ölkəmizin idman ictimaiyyəti sizi yaxşı tanıyır. Siz uzun illər idman sahəsində fəaliyyət göstərirsiniz, eyni zamanda, siz Avropa Gimnastikasının prezidentisiniz. Bu vəzifəyə bir neçə il bundan əvvəl seçilmisiniz və bu, onu göstərir ki, beynəlxalq arenada da nüfuz qazanmısınız. Bu amilləri nəzərə alaraq, bu yüksək etimadı sizə göstərirəm və ümid edirəm ki, idman sahəsində, gənclər siyasəti sahəsində yaxşı nəticələr olacaq.

Bütövlükdə idman sahəsi Azərbaycanda sürətlə inkişaf edibdir və bu gün dünya miqyasında Azərbaycan idman ölkəsi kimi tanınır. Beynəlxalq yarışlarda idmançılarımız yüksək nəticələr göstərirlər. Düzdür, Azərbaycan ictimaiyyəti bizim idman sahəsindəki qələbələrə öyrəşib və əgər biz hansısa nəticəni əldə edə bilmiriksə, əlbəttə ki, məyus olur. Ancaq hamımız bilməliyik ki, idman sahəsində rəqabət kifayət qədər güclüdür və bütövlükdə son illər ərzində idman sahəsində göstərilən nəticələr, əlbəttə, qürurvericidir. İdmançılarımız dünya, Avropa Oyunlarında, digər beynəlxalq yarışlarda bizi sevindirirlər. Son Yay Olimpiya Oyunlarında Rio Olimpiya Oyunları ilə müqayisədə az medal qazansaq da, yenə də hesab edirəm ki, idmançılarımız yaxşı nəticə göstəriblər. Medalların sayına görə Azərbaycan 33-cü yeri, Avropa ölkələri arasında 20-ci, müsəlman ölkələri arasında isə 4-cü yeri tutub.

Düzdür, idmançılarımız bu dəfə qızıl medal qazana bilmədilər, amma ona çox yaxın idilər. Amma yenə də deyirəm, idmanda məğlubiyyətlər də olur, qələbələr də olur. Bütövlükdə idman sahəsində əldə edilmiş nəticələr çox müsbətdir.

⇨ səh. 2

## F.F.Qayıbovun Azərbaycan Respublikasının gənclər və idman naziri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alıram:

Fərid Fazil oğlu Qayıbov Azərbaycan Respublikasının gənclər və idman naziri təyin edilsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 sentyabr 2021-ci il***

**Turdan tura**

## "Qarabağ" iki-üç cəbhədə mübarizəyə hazır kimi görünür




***Milli futbol çempionatının Premyer liqasında birinci kiçik fasilə başa çatıb. İlk baxışda, komandalarda dəyişiklikləri hiss etmək olur. Elita təmsilçiləri toparlanmaq, əyər-əskikləri ləğv etmək üçün çalışıblar. Bununla belə, mövsümün qeyri-sabit keçməsinə siqnalları da almaq olur.***

Mövsümə gurultu ilə başlayan "Sumqayıt" ilk dəfə büdrədi. Əlbəttə, bunda komandanın bir sıra oyunçularının milli komandaya cəlb olunmasının rolu ola bilər. Lakin hətta belə vəziyyətdə heyətdə tənzimlənmə aparılması mümkün olmayırsa, bu, zəiflik əlamətidir. Doğrudur, heç şübhəmiz yoxdur ki, bu zəiflik var. Komanda bunu Avropa klub kuboku yarışında əyani nümayiş etdirib. "Sumqayıt"ın mövsümə inamlı başlamasının çox keçmədən dayandırılması daha çox ağlabatan idi. Amma bununla belə rəqibləri ilə münasibətdə bu komandanın şansları daha çoxdur. Komandanın əsas zəif cəhəti heç olmasa, ikiplanlı oyuna hazırlıqlı olmamasıdır. Elə qol buraxılandan sonra nə taktiki gedişlər, nə funksional hazırlıq göründü, komanda öz odunda yandı, öz torunda çabaladı. Azərbaycanda, "Qarabağ" istisna olmaqla, qalan klublar hesabda irəli çıxdıqdan sonra geri çəkilib müdafiədən oynayırlar. Belədə, möhkəm müdafiə redutunu dağıtmaq üçün rəqiblərin doğru dürüst planı və təbii gücü olmur.

⇨ səh. 7

**I MDB Oyunları**

## Azərbaycan idmançıları Kazandan 60 medalla qayıtdılar




***Tatarıstanın paytaxtı Kazan şəhərində keçirilən I MDB oyunlarına sentyabrın 11-də yekun vurulub. Bir həftə davam edən yarışlarda 9 ölkədən 1640 idmançı (14 yaşdan 23 yaşa qədər) 16 növdə 182 medal dəsti uğrunda mübarizə aparıb.***

Badminton, basketbol (3X3), boks, cüdo, futzal, stolüstü tennis, stend və güllə atıcılığı, karate, kəmər güləşi, köreş, qadın güləşi, sambo, sərbəst güləş, yunan-Roma güləşi və tayboks yarışlarında ümumilikdə, 118 idmançı ilə təmsil olunan Azərbaycan komandası Oyunları uğurla başa vurub.

İlk yarış günlərində idmançılarımızın çıxışları barədə ötən sayımızda ətraflı məlumat vermişdik.

⇨ səh. 4

# Prezident İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib

*(Əvvəli 1-ci səhifədə)*

Paralimpiyaçılarımız bizi çox sevindirib və böyük məharət, peşəkarlıq, fədakarlıq göstərərək çoxlu medallar, o cümlədən bir çox qızıl medallar qazanıblar. Əlbəttə ki, bu da çox önəmli hadisədir və biz haqlı olaraq paralimpiyaçılarımızla fəxr edirik.

Eyni zamanda, idman sahəsində buraxılan nöqsanlar da ciddi araşdırılmalıdır, ciddi təhlil aparılmalıdır. Xüsusilə Olimpiya Oyunlarına hazırlıq dövründə bəzi federasiyalarda işlər qeyri-qənaətbəxş olmuşdur və bütün federasiyalarda mövcud olan vəziyyət ciddi təhlil edilməlidir. Deməli, məşq prosesinə, təlim-məşq toplanışlarına xüsusi diqqət verilməlidir. Onu da nəzərə almalıyıq ki, son Olimpiya Oyunlarında medallar qazanmış idmançılarımız bizim təcrübəli idmançılardır. Demək olar ki, veteran idmançılardır. Onların arasında gənc nəslin nümayəndələri yoxdur və bu, çox ciddi təhlil edilməlidir. Necə ola bilər ki, nəsillər arasında artıq belə bir ara, elə bil ki, məsafə yaranır. Son illərdə bütün bölgələrdə idman obyektlərinin tikintisi geniş vüsət almışdır, təkcə bölgələrdə 50-yə yaxın idman-olimpiya kompleksimiz fəaliyyət göstərir. Onların fəaliyyəti ciddi təftiş edilməlidir, orada məşq prosesi nə səviyyədədir, uşaqlar, yeniyetmələr idman bölmələrinə gəlirmi, gəlmirmi, idmanla məşğul olmaq üçün şərait nə dərəcədədir? Çünki biz, bu infrastrukturu, bu kompleksləri o məqsədlə yaratmışıq ki, həm idmanın kütləviliyi artsın, eyni zamanda, peşəkar idmançılar yetişsin. Nəzərə alsaq ki, Tokio Olimpiya Oyunlarında gənc idmançılar medallar qazana bilmədilər, bu, çox ciddi təftiş edilməlidir. Klublardakı vəziyyətlə bağlı təhlil aparılmalıdır. Yəni, biz nəticə çıxarmalıyıq. Biz, əlbəttə, qələbələrlə fəxr edə bilərik. Ancaq çatışmazlıqlar da var və onlar aradan qaldırılmalıdır. Bu sahədə şəffaflıq tam təmin edilməlidir və bütün xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır.

İdman sahəsində tərbiyə məsələlərinə də çox ciddi diqqət yetirmək lazımdır. Bütövlükdə gənclərimizin tərbiyə edilməsi prosesi diqqət mərkəzində olmalıdır. Gənclərimiz ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Həm məktəblərdə, həm ailələrdə ənənəvi dəyərlər bizim əsas sütunumuzdur. Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır. Gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır. Gənclər savadlı, bilikli olmalıdırlar, eyni zamanda, milli mədəniyyətimizə yaxın olmalıdırlar. Bizim milli dəyərlərimizi dərk etməlidirlər, onları yaşatmalıdırlar və bu istiqamətdə çox ciddi iş aparılmalıdır. Çünki indiki dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Yəni, gəncləri aldatmaq, yoldan çıxarmaq üçün səylər göstərilir. Biz bunu görürük və əlbəttə, bunun qarşısı alınmalıdır. Burada vətənpərvərlik hissləri ön planda olmalıdır. Əlbəttə ki, İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır. 44 günlük Vətən müharibəsinin hər günü bizim üçün əzizdir, doğmadır. Vətən uğrunda öz canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bizim üçün doğmadır, bizim üçün müqəddəsdir və gənclər bu nümunələr əsasında tərbiyə almalıdırlar. Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər. Bunun çox böyük mənəvi və psixoloji mənası var. Uzun illər Azərbaycan işğala məruz qalmış ölkə, biz azərbaycanlılar isə düşmən tərəfindən öz doğma torpağından didərgin salınmış xalq kimi yaşamışıq, əzab-əziyyət içində yaşamışıq, fiziki və mənəvi əzablar içində yaşamışıq. Biz buna son qoyduq. Bundan sonra müzəffər xalq kimi, qalib ölkə kimi, qürurlu insanlar kimi əbədi yaşayacağıq. Bu şanlı tarixi yaşatmaq üçün, qorumaq üçün və gəncləri bunun əsasında tərbiyə etmək üçün sizin nazirliyinizin üzərinə böyük vəzifələr düşür.

Mən əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və bu prinsipləri gündəlik fəaliyyətinizdə rəhbər tutaraq nazirliyin fəaliyyətini təşkil edəcəksiniz. Sizi təbrik edirəm və sizə fəaliyyətinizdə uğurlar arzulayıram.

***

**Fərid Qayıbov:** Çox sağ olun, cənab Prezident. Əvvəlcə icazə verin, göstərdiyiniz bu etimada, haqqımda deyilən bu sözlərə görə Sizə dərin minnətdarlığımı bildirim. Bu, mənim üçün böyük bir şərəfdir. Verdiyiniz tapşırıqlar, tövsiyələr aydın oldu, elə dərhal bu istiqamətdə işləməyə başlayacağam. Söz verirəm ki, əlimdən gələni edəcəyəm. İnanıram ki, sağlam cəmiyyətdə yaşayan Azərbaycan gəncləri yaxın gələcəkdə də öz yeni uğurları ilə, idmançılarımız isə yeni qələbələri ilə, cənab Prezident, Sizi və Azərbaycan xalqını sevindirəcəklər. Çox sağ olun.

**AZƏRTAC**

# Gənclər və idman naziri vəzifəsinə Fərid Qayıbov təyin edildi




***Ölkə Prezidenti İlham Əliyevin 7 sentyabr 2021-ci il tarixli sərəncamı ilə Fərid Fazil oğlu Qayıbov Azərbaycan Respublikasının gənclər və idman naziri təyin edilib. Fərid Qayıbov uzun müddətdir idman sahəsində çalışan və idman ictimaiyyəti tərəfindən tanınan şəxsdir. O, Avropa Gimnastika İttifaqının (UEG) prezidentidir. Nazir F.Qayıbovun tərcümeyi-halını diqqətinizə çatdırırıq.***

Fərid Fazil oğlu Qayıbov 1979-cu il aprelin 24-də Bakıda anadan olub. 1995-ci ildə Bakı şəhəri 1 saylı orta məktəbini bitirib.

1999-cu ildə Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində Azərbaycan Dövlət İqtisad İnstitutunun Biznesin təşkili və idarə edilməsi fakültəsini bakalavr, 2001-ci ildə isə magistr dərəcəsini bitirib.

2014-cü ildə Sankt-Peterburqda P.F.Lesqaft adına Milli Dövlət Bədən Tərbiyəsi, İdman və Sağlamlıq Universitetində pedaqoji elmlər namizədi dərəcəsini əldə edib.

2021-ci ildə XXIV MEMOS İcraçı magistr proqramına (İdman təşkilatının idarə olunması üzrə icraçı magistr) qəbul olunub.

2000-ci ildən 2001-ci ilə kimi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Balaxanıneft" Neft-qaz Hasilatı İdarəsində işləyib. 2001-2003-cü illərdə "Balaxanıneft" Neft-qaz Hasilatı İdarəsinin Planlaşdırma şöbəsində iqtisadçı vəzifəsində çalışıb.

2003-2005-ci illərdə Azərbaycan Gimnastika Federasiyasının (AGF) idman və logistika üzrə meneceri, 2005-2006-cı illərdə isə federasiyanın baş meneceri vəzifəsində çalışıb. 2006-cı və 2010-cu illərdə AGF-nin hesabat-seçki konfransında federasiyanın baş katibi vəzifəsinə seçilib.

2013-cü ildə Avropa Gimnastika İttifaqının (UEG) vitse-prezidenti, 2017-ci ildə isə prezidenti vəzifəsinə seçilib. Qitə təşkilatının prezidenti seçilməsi ilə əlaqədar, AGF-nin Baş katibi vəzifəsindən istefa verib.

2013-cü ildən Milli Olimpiya Komitəsinin üzvüdür. 2008 və 2012-ci illərdə Beynəlxalq Gimnastika Federasiyasının (FIG) Şura üzvü seçilib.

2017-ci ilin dekabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, ölkəmizdə idmanın inkişafında göstərdiyi xidmətlərə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunub.

Tokio-2020 Olimpiya Oyunları çərçivəsində gimnastika növləri üzrə yarışlarda Apellyasiya Hakimlər Briqadasının üzvü olub.

Ailəlidir, iki oğlu və bir qızı var.

# Gənclər və idman naziri: Biz idman mütəxəssisləri ilə birlikdə yeni strategiya müəyyənləşdirəcəyik




***Biz idman federasiyaları, idman mütəxəssisləri ilə birlikdə yeni strategiya istiqamətində çalışacağıq. Azərbaycan idmanının yeni strategiyası, istiqamətləri müəyyənləşdiriləcək.***

Bu barədə gənclər və idman naziri Fərid Qayıbov sentyabrın 8-də jurnalistlərə müsahibəsində deyib.

Nazir qeyd edib ki, bu strategiya "İdman haqqında" qanundan başlayaraq, peşəkar idman növlərini, o cümlədən uşaqları və gəncləri, bütün idman sahələrini əhatə etməlidir. Gələcəkdə uşaq və gənclərin idmanla daha fəal məşğul olması üçün planlarımız var. Növbəti üç, beş, on ildən sonra Azərbaycanda idman sahəsini necə görürük. Bu layihələr və planlar hazır olduqda ictimaiyyətə məlumat veriləcək.

# Gənclər və idman naziri Fərid Qayıbov nazirliyin kollektivinə təqdim edilib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ötən gün imzaladığı Sərəncama əsasən, gənclər və idman naziri vəzifəsinə təyin edilmiş Fərid Qayıbov sentyabrın 8-də kollektivə təqdim olunub.***

Yeni naziri kollektivə Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Yusuf Məmmədəliyev təqdim edib.

Əvvəlcə uzun illər Gənclər və İdman Nazirliyinə rəhbərlik etmiş, ölkəmizdə gənclər və idman sahəsinin inkişafında mühüm xidmətləri olmuş sabiq nazir Azad Rəhimovun xatirəsi anılıb.

Yusuf Məmmədəliyev tədbirdə çıxış edərək dövlətimizin başçısının sentyabrın 7-də imzaladığı müvafiq Sərəncamı diqqətə çatdırıb, Fərid Qayıbovu təyinat münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Bildirib ki, Fərid Qayıbov idman ictimaiyyətində kifayət qədər yaxşı tanınır. O, uzun müddət Azərbaycan Gimnastika Federasiyasında bir sıra məsul vəzifələrdə çalışıb, Avropa Gimnastikasının prezidenti vəzifəsinə seçilib. İlk dəfə azərbaycanlı mütəxəssis beynəlxalq federasiyada rəhbər vəzifəyə təyin olunub. Fərid Qayıbov ölkə daxilində, eləcə də beynəlxalq miqyasda bir sıra uğurlar qazanıb. Onun idman sahəsində biliyi, təcrübəsi ölkə rəhbəri tərəfindən layiqincə qiymətləndirilib və ona bu yüksək etimadın göstərilməsində həlledici rol oynayıb. Prezident Fərid Qayıbovu məsul vəzifəyə təyin edərkən gənclər siyasəti və idman sahəsindəki prioritet istiqamətləri bir daha müəyyənləşdirdi və müvafiq tapşırıqlarını verdi.

Diqqətə çatdırılıb ki, ölkəmizdə idman sahəsi sürətlə inkişaf edir. Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bu, bizi qürurlandırır. Lakin qazanılan uğurlara baxmayaraq, mövcud olan bəzi çatışmazlıqlar aradan qaldırılmalıdır.



Prezident Administrasiyasının şöbə müdiri vurğulayıb ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər və idman siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməklə yanaşı, dövlət siyasətinin prioritet sahəsi olaraq qalmaqdadır. Hər iki sahədə əldə olunan nailiyyətlər bunun əyani təzahürüdür. Hamımız gənclər və idman sahələrində həyata keçirilən bu uğurlu siyasət nəticəsində əldə olunan səmərəli nəticələrin şahidiyik. Gənclərimizin ənənəvi və milli dəyərlər əsasında tərbiyəsi nazirliyin fəaliyyətinin əsas istiqaməti olmalıdır. Qloballaşma şəraitində gənc nəslin mənfi xarici təsirlərdən qorunması, onların savadlı, bilikli yetişməsi dövlətimizin başçısı tərəfindən qarşıya qoyulan ən önəmli tapşırıqdır.

"Vətənpərvər ruhda yetişmiş gənclərimiz 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan Şanlı Qələbədə aparıcı rol oynadılar. Gənclərimizin bundan sonra da qalib xalqın nümayəndələri kimi, vətənpərvərlik ruhunda və müasir zamanla ayaqlaşan fərdlər kimi yetişdirilməsi nazirliyin qarşısında duran vacib vəzifələrdəndir. Əminəm ki, nazirliyin yeni rəhbəri və kollektiv bu məsul vəzifənin öhdəsindən uğurla gələcək və yeni nailiyyətlər əldə edəcək", - deyə Y.Məmmədəliyev vurğulayıb.

Təqdimat mərasimində çıxış edən Fərid Qayıbov göstərilən yüksək etimada görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərək deyib: "Bu məsuliyyətli vəzifənin öhdəsindən layiqincə gəlməyi bacaracağıma inanıram. Dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi. Qarşıya qoyulan vəzifələri yerinə yetirməyə, Azərbaycan idmanındakı çətinlikləri aradan qaldırmağa hazır olmalı, bu sahədə strategiya müəyyənləşdirməliyik".

Nazir bildirib ki, Azərbaycanda idman sahəsində müəyyən uğurlu nəticələr olsa da, bununla kifayətlənmək olmaz. Azərbaycanda idmanın daha da inkişafı üçün yeniliklərə ehtiyac duyulur. Bunun üçün də ciddi səy göstərilməlidir.

Tədbirdə Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK baş katibinin müavini Azər Əliyev, idman federasiyalarının rəhbərləri, ölkəmizin idman ictimaiyyətinin nümayəndələri və digər şəxslər iştirak ediblər.

# İlqar Rəhimov: Əsas işlərimizdən biri Vətən müharibəsində sağlamlığını itirən qazilərimizin Paralimpiya hərəkatına cəlb edilməsidir



***Avqustun 24-dən sentyabrın 5-dək keçirilən "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarında böyük uğurla çıxış edən Azərbaycan idmançıları qazandıqları 14 qızıl, 1 gümüş və 4 bürünc medalla dünyada 10-cu olmaqla hər bir azərbaycanlıya böyük sevinc hissləri yaşadıblar. Gündoğar ölkədə uğur qazanan milli Paralimpiya komandamızın üzvlərinin sonuncu qrupu sentyabrın 7-də Vətənə qayıdıb.***

Heydər Əliyev Beynəlxalq Aeroportunda təşkil olunan qarşılanma mərasimində Azərbaycan Milli Paralimpiya Komitəsinin, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin, ölkəmizin idman ictimaiyyətinin nümayəndələri, paralimpiyaçıların yaxınları və jurnalistlər iştirak ediblər.

Qrupun tərkibində ölkəmizə qızıl və gümüş medal qazandıran atletimiz Lamiyə Vəliyeva, eləcə də yarışı mükafatsız başa vuran Yuliya Yanovskaya, Kamran Zeynalov və Yelena Taranova Vətənə qayıdıblar.



Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov idmançılarımızın qarşılanması mərasimində jurnalistlərə müsahibə verib. Komitə rəhbəri deyib: "Komandamız çox güclüdür. Bunu Paralimpiadadan əvvəl də demişdim. Hətta proqnoz verəndə bildirdim ki, Tokioya yollanan komanda əvvəlki heyətlərdən daha yaxşıdır. Hər bir idmançımızın nəyə qadir olduğunu bilirdik. Bu məlumatlar bizə əsas verirdi ki, nəticələr barədə düzgün proqnoz verək. Yarışdan əvvəl neçə qızıl medal qazana biləcəyimizi ifadə etmirdik. Amma paralimpiyaçıların Tokioda layiqli çıxış edəcəklərini gözləyirdik. Bəzi proqnozlarımız isə baş tutmadı. Qızıl medal gözlədiyimiz idmançılar öz potensiallarından aşağı səviyyədə çıxış etdilər. Digərləri isə gözləmədiyimiz halda Paralimpiya çempionu oldular. Çünki uşaqlarda qələbə ruhu var idi. Azərbaycan xalqına, paralimpiyaçıların dostu olan Prezident İlham Əliyevə təşəkkür edirik. Dövlətimizin başçısının diqqət və qayğısı nəticəsində paralimpiyaçılarımız Vətənə zəfərlə qayıdıblar".

İ.Rəhimov bildirib ki, Vətən müharibəsində qazanılan şanlı zəfər paralimpiyaçıların çıxışlarına da öz təsirini göstərib: "Qələbə idmançıları çox ruhlandırdı. Söz verirəm ki, idmançılarımız bundan sonra daha məsuliyyətli hazırlaşacaqlar. Parisdəki Paralimpiadaya cəmi üç il qalıb. Qısa müddətdə hazırlıqlarımızı görməliyik. Yeni komanda formalaşdırılmalıdır. Təbii ki, indiki heyətdən yeni komandada da yer alan idmançılar olacaq. Çünki komandamız çox gəncdir. Biz seleksiya işlərini davam etdirməli və yeni idmançıları cəlb etməliyik. Bu istiqamətdə işlər görülür. Əsas işlərimizdən biri Vətən müharibəsində sağlamlığını itirən qazilərimizin Paralimpiya hərəkatına cəlb edilməsidir. Çoxlu sayda gənc paralimpiyaçılarımız var. Onlar idmanın istənilən növü ilə məşğul ola bilirlər. Biz seleksiya işlərini aparacaq və çalışacağıq ki, Parisə daha güclü heyətlə yollanaq".

# AFFA-da gənclər və idman naziri ilə görüş keçirilib



*AFFA-nın inzibati binasında Azərbaycan Respublikası gənclər və idman naziri Fərid Qayıbovla AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov arasında görüş keçirilib.*

Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə keçirilən görüşdə AFFA-nın vitse-prezidenti Vaqif Sadıqov, Azərbaycan milli komandasının baş məşqçisi Canni De Byazi və qurumun başqa rəsmiləri iştirak ediblər.

Gənclər və idman nazirini salamlayan Elxan Məmmədov, ilk növbədə, bu vəzifəyə təyinatı münasibətilə F.Qayıbovu AFFA rəhbərliyi və futbol ictimaiyyəti adından təbrik edib, fəaliyyətində uğurlar arzulayıb. Qurumun icraçı vitse-prezidenti gənclər və idman nazirinin idman qurumları ilə rəsmi görüşlərinə ölkədə ən kütləvi idman növü olan futboldan başlamasından böyük məmnunluq hissi keçirdiyini bildirib.

İşgüzar ab-havada keçən görüşdə AFFA-nın strukturu və fəaliyyəti barədə ətraflı məlumat verilib. Assosiasiyanın son 4 ili əhatə edən illik hesabat nəşrləri nazirə təqdim olunub.

Nazirin diqqətinə hazırda gündəmdə olan və həlli vacib bir neçə məsələ də çatdırılıb. Bildirilib ki, 8 komandanın iştirakı ilə keçirilən Azərbaycan Premyer Liqasında idman rəqabəti qənaətbəxş səviyyədə olsa da, AFFA və Peşəkar Futbol Liqası komanda sayının 10-a yüksəldilməsini istəyir. Lakin maliyyə resurslarının çətinliyi ucbatından müvafiq şərtlərə uyğun gələn klubların olmamasına görə komanda sayını artırmaq mümkün olmur.

Elxan Məmmədov uşaq və yeniyetmə futbolu ilə bağlı məsələlərdən, son illər ərzində ölkədə bir sıra əhəmiyyətli beynəlxalq turnirlərin və oyunların təşkilindən, həyata keçirilən önəmli infrastruktur layihələrdən də danışıb.

Gənclər və idman naziri Fərid Qayıbov səmimi görüşə və ətraflı məlumata görə minnətdarlığını bildirib.

# Azərbaycan idmançıları Kazandan 60 medalla qayıtdılar



*(Əvvəli 1-ci səhifədə)*

Sentyabrın 7-də idmançılarımız sambo, stend atıcılığı (dairəvi stend), stolüstü tennis, güllə atıcılığı, futzal və tayboks növlərində mübarizə apardılar.

Samboçularımızdan Nicat Məmmədli (58 kq), Elvin Bağırov (64 kq), Toğrul Salmanov (+98 kq) bütün rəqiblərinə qalib gələrək himnimizin eyni zalda və bir gündə üç dəfə səsləndirilməsinə nail oldular. Komanda yoldaşları Rəsul Aydəmirov (98 kq) gümüş, Adil Adilzadə (88 kq) isə bürünc medal qazanıblar.

Kazanda Azərbaycan himninin sədaları Stend atıcılığı mərkəzində də eşidilib. Stend



atıcılığının dairəvi stend növündə Cavid Həsənov bütün rəqiblərini qabaqlayıb.

Tayboks yarışlarında isə iki idmançımız fəxri kürsüyə qalxıb. 60 kq çəki dərəcəsində Əli Əliyev və 63,5 kq çəkidə Məhər Əsədzadə bürünc medala layiq görülüblər.

Sentyabrın 8-də tayboks və güllə atıcılığı növlərində mübarizəni davam etdirən idmançılarımıza stolüstü tennis və badmintonçularımız da qoşulublar.

İlk olaraq mübarizəyə qoşulan oğlanlar və qızlardan ibarət stolüstü tennis üzrə yığma komandalarımız günü bürünc medalla başa vurublar.

Badmintonçularımız ilk iki turda ardıcıl olaraq, Belarus və Özbəkistan idmançılarını eyni hesabla (4:1) məğlub ediblər. Üçüncü turda Ermənistan yığmasına imkan verməyən gənclərimiz 5:0 hesablı təmiz qələbə qazanıblar. Badmintonçularımız qrup mərhələsinin dördüncü turunda Rusiya yığmasına (0:5) məğlub oldular. Beşinci turda isə Qazaxıstan yığmasına 4:1 hesabı ilə qalib gəlməklə turnir cədvəlini ikinci sırada başa vuran millimiz komanda yarışlarında gümüş medala layiq görülüb.

Tayboksçuların mübarizəsində Rəvan Ağazadə (67 kq) qızıl medal uğrunda qarşılaşmada Belarus təmsilçisi Yevgeni Fyodorençiklə qüvvəsini sınayıb. Rəqibinə məğlub olan Rəvan ikinci yeri tutub.

Qadın tayboksçularımızdan 51 kq çəki dərəcəsində çıxış edən Leyana Sayer finalda belaruslu Albina Posoxla qarşılaşıb. Həlledici mərhələdə rəqibinə məğlub olan idmançımız da gümüş medalla kifayətlənib.

Sentyabrın 9-u mübarizəyə qoşulan cüdoçularımız günü uğurla başa vurublar. Belə ki, Səbinə Əliyeva (52 kq) və Rövşən Əliyev (60 kq) bütün rəqiblərini məğlub edərək oyunların qalibi adını qazanıblar. Əhməd Yusifov (60 kq) gümüş, Camal Feyziyev (+100 kq), Şəfəq Həmidova (48 kq), Elçin Hüseynov (66 kq) və Murad Fətiyev (81 kq) bürünc medallara sahib oldular. Maraqlıdır ki, 60 kq çəki dərəcəsində Azərbaycan finalı keçirilib. Rövşən qızıl medalı qazanmaq üçün finalda öz komanda yoldaşı Əhmədi məğlub etməli oldu. Xatırladaq ki, bu iki komanda yoldaşının beynəlxalq yarışlarda ikinci finalı idi. Bundan öncəki, Almaniya duelindən Əhməd qalib çıxmışdı.

Beləliklə, cüdoçularımız fərdi yarışları yeddi medalla başa vurublar.

Ertəsi gün cüdo üzrə komanda yarışlarında çıxış edən millimiz dörddəbir finalda Qırğızıstana 5:1, növbəti mərhələdə Qazaxıstana 5:3 hesabı ilə qalib gələrək həlledici mərhələyə adlayıb. Qızıl medal uğrunda görüşdə yığmamız Özbəkistan seçməsinə 3:5 hesabı ilə udazaraq gümüş medalla kifayətlənib.

Karateçilərimiz də həmin gün mübarizəyə fəal başlayıblar və 9 idmançımız bir gün sonra keçirilən medal yarışlarına vəsiqə qazanıb.

Oyunların sonuncu günündə karateçilərimiz və badmintonçularımız medallar uğrunda mübarizə apardılar.

Karatenin kumite yarışlarında 50 kq çəki dərəcəsində yarışan İnci Əzizova qızıl medal qazanıb. Kumitedə finaladək irəliləyən Əminağa Quliyev (60 kq) və Osman Osmanlı (+84 kq) gümüş medala yiyələniblər.



Kumite yarışlarında digər idmançılarımız Mədinə Sadıqova (55 kq), Sultan Hüseynov (60 kq), Nuran Rzazadə (67 kq) və Abbas Dadaşov (84 kq) bürünc medal qazanıblar.

Kata yarışlarında Həsənəli Həsənov gümüş, Ceyhun İsmayılov bürünc medala layiq görülüblər.

Yekunda karateçilərimiz 1 qızıl, 3 gümüş və 5 bürünc olmaqla, 9 medal qazanıblar.

Kazanda son medallarımızı yeniyetmə və gənc badmintonçularımız qazanıblar.

Oğlan badmintonçuların şəxsi yarışında Diki Pangestu finalda Qazaxıstan idmançısı Dmitriy Panarini 2:0 hesabı ilə məğlub edərək MDB oyunlarının qalibi olub.

Qızların şəxsi yarışında badmintonçumuz Era Maftuha finalda Rusiya təmsilçisi Mariya Qolubevaya 0:2 hesabı ilə uduzaraq turnirin gümüş medalına layiq görülüb.

Oğlanların qoşa yarışında Diki Pangestu-Məhəmməd Xədafi cütü finalda Rusiya badmintonçuları Georgiy Lebedev-Lev Barinov tandemi ilə qarşılaşıb. 3 set davam edən qarşılaşma badmintonçularımızın 1:2 hesablı məğlubiyyəti ilə başa çatıb. Badmintonçularımız müvafiq kateqoriyada gümüş medala yiyələnib.

Qarışıq-qoşa yarışında yarımfinalda Pavel Moniç-Regina Qaliaxmetova (Rusiya) cütünə 0:2 hesabı ilə uduzan Aqil Qəbilov-Era Maftuha tandemi müvafiq kateqoriyada bürünc medal qazanıb.

Xatırladaq ki, daha öncə yeniyetmə və gənc badmintonçularımızdan ibarət millimiz komanda yarışında gümüş medal qazanıb.

Bununla da, badmintonçularımızın 1-ci MDB oyunlarında ümumi qazancı 1 qızıl, 3 gümüş və 1 bürünc medal olub.

Beləliklə. Azərbaycan idmançıları Rusiyanın Kazan şəhərində keçirilən I MDB Oyunlarını 15-i qızıl, 16-sı gümüş, 29-u bürünc olmsqla, 60 medalla başa vurublar.

Sentyabrın 11-də Kazanda oyunların bağlanış mərasimi keçirilib.

Mərasimdə iştirak edən idmançılarımız və nümayəndə heyətimizin digər üzvləri dünən Vətənə qayıdıblar.

***Səkinə NOVRUZQIZI***
***Fotolar DİLAVƏRindir***

# Rusiyanın Kazan şəhərində MDB ölkələri Bədən Tərbiyəsi və İdman Şurasının iclası keçirilib



*Rusiyanın Kazan şəhərində MDB-nin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq müqaviləsi iştirakçılarının Bədən tərbiyəsi və idman şurasının iclası keçirilib. İclasa Rusiya gənclər və idman nazirinin müavini Aleksey Morozov sədrlik edib.*

Toplantıda hazırda davam edən MDB ölkələrinin I Oyunlarına bütün ölkələrin qatıla bilməməsindən təəssüf ifadə olunub. Bildirilib ki, Türkmənistan epidemioloji vəziyyətlə əlaqədar son anda Oyunlardan kənarda qalıb.

Eyni zamanda indiyədək MDB Oyunlarında koronavirusa yoluxma halının qeydə alınmadığı, amma ötən gün bəzi idmançıların zədələndikləri diqqətə çatdırılıb.Gələn həftə məktəblilər, dekabrda isə ailələr arasında festivalın təşkil olunacağı qeyd olunub. Həmin tədbirlərdə Azərbaycan iştirak etməyəcək.

İclasda ölkəmizi Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Fərid Mansurov və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Namiq Novruzov təmsil ediblər.

Tədbirdə çıxış edən Namiq Novruzov hazırda Azərbaycanda koronavirusla bağlı müəyyən məhdudiyyətlərin götürüldüyünü və tədbirlərin təşkilatçılığı ilə bağlı öhdəlikləri yerinə yetirməyə hazır olduqlarını bildirib.

O, yeni nazir Fərid Qayıbovun fəaliyyətə başlamasından sonra MDB daxilində əməkdaşlıqla bağlı konkret məlumatlar verə biləcəklərini söyləyib.

N.Novruzov Azərbaycanda idmanın inkişafına və idman infrastrukturlarının yaradılmasına böyük diqqətin yetirildiyi, ölkədə böyük idman yarışlarının təşkil edildiyini diqqətə çatdırıb. O, II MDB Oyunlarını da təşkil etməyə hazır olduqlarını vurğulayıb.



N.Novruzov növbəti yarışda hansısa idman növlərinin proqrama əlavə edilməsi ehtimalına toxunub: "Hazırkı reqlamentə görə hansısa məhdudiyyət yoxdur. Bu kimi məsələlər ev sahibi bilinəndən sonra müzakirə olunacaq. Biz də öz növbəmizdə çalışacağıq ki, bizə yaxın idman növləri də proqramda yer alsın. Bizim ölkəmizin böyük tədbirləri keçirmək üçün kifayət qədər təcrübəsi var. Çox hallarda bizdən müəyyən məsləhətlər istəyən ölkələr olub. Burada bəzi təşkilati və digər məsələlərə diqqət yetiririk. Hesab edirik ki, Azərbaycan II MDB Oyunlarına ev sahibliyi etsə, hər kəsi təəccübləndirəcək".

Təşkilatçı ölkənin MDB İcraiyyə Komitəsinin dekabrda keçiriləcək iclasında seçiləcəyi, yarış proqramının yaxın vaxtlarda müəyyənləşəcəyi və növbəti Oyunların 2023-cü ildə təşkil olunacağı diqqətə çatdırılıb.

Digər iştirakçı ölkələrin nümayəndələri də MDB Oyunlarının üstünlüklərindən danışaraq, öz təkliflərini irəli sürüblər.

Daha sonra MDB-nin idman paytaxtının seçilməsi və 2022-ci ildən atletika üzrə Sağlamlıq Marafonunun keçirilməsinə dair qərarlar qəbul olunub. Növbəti Oyunları təşkil edəcək ölkəni MDB İcraiyyə Komitəsi seçəcək.

# Karateçilərimizin Bazel uğuru



*Sentyabrın 11-12-də İsveçrənin Bazel şəhərində "XI International Basel Open Masters" turniri keçirilib.*

Azərbaycan Milli Katate Federasiyanın prezidenti Yaşar Bəşirovun rəhbərliyi altında yarışda ölkəmizi müxtəlif yaş qrupları və kateqoriyalarda 13 karateçi təmsil edib.

İdmançılarımız turnirdə 3 qızıl, 3 gümüş və 4 bürünc olmaqla, 10 medal qazanıblar.

Karateçilərimizdən Tural Ağalarzadə (67 kq), Pənah Abdullayev (84 kq) və mütləq çəkidə Turqut Həsənov qızıl medal qazanıblar. Rafiz Həsənov (67 kq) və Asiman Qurbanlı (84 kq) gümüş medala layiq görülüblər. Asiman daha bir gümüşü mütləq çəkidə qazanıb.

Bürünc medalları isə, Firdovsi Fərzəliyev (67 kq), Ülvi Qurbanlı (60 kq), Məhəmməd İsmayılov (67 kq) və Samir Məmmədov (75 kq) əldə ediblər.



# Rusiya idman nazirinin müavini: "Azərbaycanın yaxşı təşkilatçılıq təcrübəsi var"

*"Azərbaycanın yaxşı təşkilatçılıq təcrübəsi var". Bu sözləri Rusiya idman nazirinin müavini Aleksey Morozov Azərbaycan mediasına müsahibəsində deyib.*

**- II MDB Oyunlarını iki ölkə - Azərbaycan və Belarus təşkil etmək istəyir. Həm Bakı, həm də Minskin yaxşı təşkilatçılıq təcrübəsi var. Növbəti yarışın keçirilmə yeri barədə nə deyə bilərsiniz?**

- Hər ikisi yaxşı namizəddir. Azərbaycan və Belarus I və II Avropa Oyunlarına ev sahibliyi edib. Düşünürəm ki, bu yarışı da yüksək səviyyədə keçirmək üçün kifayət qədər yaxşı infrastruktur və potensiallı kadrlar var. Bu gün təşkilatçılıqla bağlı bir neçə məqamı - proqram və gender məsələsini müzakirə etdik. Bu, əslində ev sahibi seçiminə təsir edə biləcək çox yaxşı təklifdir. Çünki bizə paralimpiya idman növləri üzrə də təkliflər daxil olub. Bu da bizim üçün yenilikdir. Bilirsiniz ki, burada müəyyən şərtlər var. Odur ki, idman növləri ilə bağlı məsələni ətraflı müzakirə edəcəyik. Bu il II MDB Oyunlarının yeri müəyyənləşdiriləcək.

**- Gələcəkdə Oyunlar açıq xarakter daşıya bilərmi?**

- MDB Oyunlarının Əsasnaməsində yarışın açıq ola biləcəyi nəzərdə tutulur. Hesab edirəm ki, bu gün bizim müəyyən təcrübəmiz var. Nəticələri ümumiləşdirəcəyik. Yarış iştirakçılarından, əcnəbi idmançılardan hansı təklifləri alacağımıza baxacağıq. Bu məsələ mütləq müzakirəyə çıxarılacaq.

**- Medal sıralamasına Rusiya başçılıq edir. Azərbaycan isə dördüncü yerdə qərarlaşıb. Sıralama ilə bağlı fikirləriniz necədir?**

Açığı, bizim üçün medal qazanmaq elə də önəmli deyil. Bu, daha çox fikir mübadiləsidir. Məşqçilər heyəti müxtəlif ölkələrin yığma komandaları və idmançıları ilə görüşür. Bizə məhz bu fikir mübadiləsi maraqlıdır. İnsanlar hər şeydən öncə bir-biri ilə ünsiyyət qursun, öz təcrübələrini bölüşsünlər.

**- MDB ölkələri arasında "Birlik kuboku" adı altında ilk futbol turnirini siz keçirmisiniz. Amma sonradan bu turnir uğursuz alındı. Gələcəkdə MDB Oyunlarının təşkili ilə bağlı da oxşar problemin yarana biləcəyini düşünmürsünüz?**

- Futbol komandaları təşkilatçılara dərhal ciddi proqram tətbiq edir. Bu, hazırkı infrastruktur üçün iştirakçı sayının və tələblərin çox olması deməkdir. Bayaq dediyim kimi, bu gün iki təklif aldıq. MDB Oyunlarının proqramına futbol və ya digər idman növlərinin salınmasına dair təkliflər də olsa, baxılacaq.

**- Adətən ilk yarış yüksək səviyyədə təşkil olunur. Amma görürük ki, I MDB Oyunlarında təşkilatçılıqla bağlı bəzi problemlər var. Məsələn, biz Rusiyanın idman naziri Oleq Matıtsin və digər rəsmi nümayəndələrin buraya gələcəyini gözləsək də, belə bir hal baş vermədi. Bu, nə ilə əlaqədardır?**

- Nazir bu gün səhər burada idi. Dünən iş proqramı çərçivəsində qonaqları qəbul edib, rəsmi qarşılanma mərasimi olub. Bütün gün ərzində tədbirlərdə iştirak edib. Xidməti vəzifəsi ilə bağlı bu gün getməli oldu.

**- Gələcəkdə hansı yeni idman növləri MDB Oyunlarının proqramına salına bilər?**

- Bu gün bizə bildirildi ki, paralimpiya idman növlərinə maraq var. Düşünürəm ki, aktiv şəkildə inkişaf edən idman növləri, hər şeydən öncə güləş, döyüş növləri proqramda qalacaq. Həmçinin olimpiya proqramına daxil olmayan milli idman növlərini də unutmayacağıq.

**- Belə çıxır ki, Azərbaycan II MDB Oyunlarına ev sahibliyi etsə, milli idman növlərinin proqrama salınmasını təklif edə bilər?**

- Tamamilə doğrudur.

# Uduzmaq ayıb deyil, amma...



*Portuqaliyaya uduzmaq istər səfərdə olsun, istər bitərəf meydanda, istərsə də dogma divarlar arasında, heç ayıb deyil.*

Bu cümlədəki "heç"in yeri var və heç də əbəs işlədilməyib. Çünki Azərbaycan milli futbol komandasının bu mərhələdəki oyununa, lap elə boyuna-buxununa görə, ümumiyyətlə, qarşıya çıxan hər rəqibə uduzmaq olar, əlbəttə, ayıb deyil. Məsələn, Lüksemburqa uduzub, sonra bir hissədəki oyuna tərif vermək olar. Belə olanda, Portuqaliya kimi as komandaya uduzmağın özündə və sözündə ayıblıq nə ola bilər ki?! Uça-uça gəldilər, gəzə-gəzə üç qol vurdular, halalca üç xalla qaçaqaça getdilər. Doğrudur, lap azacıq zəhmət çəkdilər: soyunub-geyinmişdilər axı, üstəlik, meydana çıxıb top qovmuşdular, nə az, nə də çox, 90 dəqiqə üstəgəli ilə.

Millinin oyununa ikrah dolu kinayə və eyhamla söz açmağın özü də indiki halda bir lütfdür. Əlbəttə, yəqin Portuqaliya ilə Bakıda məşhur bir oyunu bir az stajlı azarkeşlər yaxşı xatırlayırlar. Arenadakı işıqlanma sistemi probleminə görə iki gün davam edən matçda Luiş Fiqu və komandasından qoparılan bir xalın Azərbaycan millisinə nəyə başa gəldiyini həmin tamaşaçılar yəqin çox yaxşı bilirlər. Əzm, iradə, mətinlik, istək, həvəs, coşğu və s. və i. Sonra bir neçə il davam edən ümid qığılcımı. Hərçənd hamı bilirdi ki, bu, od törətməyəcək qığılcımdır, hələ odunu yaşdır. Amma öldürəni olmayınca, ümid isitməsə də, ovunduran həmin ümiddir.

Bəli, bu dəfə heç oyundan söz açmağa dəymez. Qüvvələr nisbəti heç müqayisə oluna bilməz, heç maraqlı da deyil. Amma tarix, təcrübə isbat edir ki, sadəcə, istək, quruca həvəs olan yerdə nailiyyət mümkündür. Elə buna görə arenaya "COVID-19" pandemiyası səbəbilə icazə verilən limit həddinə qədər toplaşan azarkeşlər, həvəskarlar, heç olmasa, futbolçulardan azacıq, kiçicik, bircə damla boyda həvəs gözləyirdilər.

Bu komanda məğlubiyyətlə barışmışdısa, niyə meydana çıxırdı görəsən? Belə uduzmaq üçün meydana, kimi desən, buraxmaq da olardı.

Əsla, qınamıram. Futbolçuları məzəmmət etmək fikrindən çox uzağam. Bilirsiniz niyə? Lüksemburqla oyundakı heyət, İrlandiya ilə matçdakı tərz, Portuqaliya ilə görüşdəki həm heyət, həm də elə oyunun özünü quranlar var axı.

Söz sahibi olanlar, görəsən, həqiqətənmi bu 3 oyunu belə görür və ona belə hazırlaşırdılar? Qəfil ildırım vurması effektindənmi, ya verilməyən sual kimi əyildiyimizdən, soruşmağı da ayıb bilirəm. Bax, hələ qarşılaşmaya qədər məşqçi korpusunun heyəti bu mat-məəttəl vəziyyəti yaratmışdı, elə o anda qarışıq hissli həvəs yoxa çıxmalı idi ki, bayrağın üç rənginə bürünmüş "Azərbaycan milli komandası" ifadəsi, heç olmasa, teleekran qarşısına dikilməyə məcbur edir.

Gör nə qədər bu heyətdəki oyunçuları öyrənməyəsən, rəqibi nə qədər tanımayasan ki, belə qərar çıxarasan! Çox yumşaq dedim axı, deyilmi?!

Söz yox ki, taktiki seçimdən, texniki tapşırıqlardan heç danışmağa dəyməz. Kim kiminlə əlbir olub hansı oyunu aparmalı idisə, yaxşısını məşqçi bilir, pisini isə meydanda əyani müşahidə etdik. Meydandakı hərc-mərcliyi arxadan ta önə qədər təsəvvür edib, qapıdan çıxarılan 3 topa şükür etmək lazımdır. Bunu portuqalların yorğunluğuna yazaq, yoxsa olimpiya stadionuna toplaşan o qədər azarkeşi, heç olmasa, estetik qollar şousunun tamaşaçısına çevirmək savab iş olardı.

Elə buna görə futbolçuları qınamağa dəyməz. Futbolçuya ruh verən yoxdursa, üstəlik, heyət belə alayarımçıq qurulursa, oyuna gəlib məşqçilər qarışıq mükafat və məvaciblər onsuz da paylanacaqsa, həvəsə nə ehtiyac, istəyə nə, cürətə nə! Çıx, pulunu al, get işinin dalınca. Oktyabrda doğma divarlar arasında yenə oyun var, toplaşarsınız "Allaha təvəkkül" deyib, bəlkə 6, olmasa, 4, lap olmasa, 3 xal ümidi par-par parıldayır axı.

Əlqərəz, qalan oyunları yola verib, mərhələni birtəhər danlaqsız, hələ bəlkə sonuncu olmadan qurtarmaq da olar. Yox, əlbəttə, hələ mövsümü bəhbəhlə başa vurmaq üçün Bakıdakı iki oyuna ümidlər həqiqətən ölməyib. İkicə qələbə reallıqdır və dünyanı tərsinə dövran etdirmək olar. Lüksemburqa məğlubiyyəti bir kənara qoyub, komandanın ikinci hissədəki oyununa şərh vermək istəyənlər ordusunun buna ehtiyacı var.

Biz biçarələrsə meydanda komanda, bu olmasa da, iynə ucu boyda ümid, ya da bircəcik qığılcım gözləyirik. Hələ demirəm ki, bu komandanın sabaha ümidi Azərbaycanda yetişən futbolçularla olmayacaqsa, əvvəlki iki oyun üçün söylədiyimiz o nağılların sonu gəlməyəcək. Yəni ki, o üç almadan yerə düşəni olmayacaq. Almanın ağacda qalmayacağı bəlli olduğundan, haralara və kimlərə qismət olacağı isə məlum deyil. Naməlum sferada havada qalıb fırlana, yaxud kimsə onu elə havada qapıb gizlədə və özü ilə götürüb apara da bilər.

Həvəsdir bəsdir. Onsuz da bilirik ki, lap elə Byazi də gedib, kim gəlsə də, qayda və qayə dəyişməyəcək. Bu futbolu proqramlaşdırıb kökləməyincə nəsə dəyişməyəcək.

***BATI YAR***

## Futbol. Dünya kuboku-2022 Seçmə mərhələ. Avropa zonası. "A" qrupu

**Azərbaycan - Portuqaliya 0:3 (0:2)**

***7 sentyabr. Bakı. Olimpiya stadionu.***

**Hakimlər:** Marko Qvida - Filippo Meli, Alessandro Kostantso - Fabio Mareska (İtaliya).

**VAR hakimləri:** Marko Di Bello - Çiro Karbone (İtaliya).

**Qol:** Bernardu Silva 26, Andre Silva, 31, Dioqo Jota, 75.

**Sarı vərəqə:** Ələsgərov, 16, Qurbani, 61, Haqverdi, 77//Palinya, 15, Mendeş, 90.

**Azərbaycan:** Şahruddin Məhəmmədəliyev, Elvin Bədəlov, Höcət Haqverdi, Azər Salahlı (Rəhim Sadıqov, 76), Abbas Hüseynov, Təmkin Xəlilzadə (Əli Qurbani, 46), Qara Qarayev (kap.; Anatoli Nuriyev, 46), Emin Mahmudov, Filip Ozobiç (Vüqar Mustafayev, 62), Namiq Ələsgərov, Mahir Emreli (Toral Bayramov, 62). **Baş məşqçi:** Covanni De Byazi.

**Portuqaliya:** Ruy Patrisiu, Pepe, Ruben Diaş, Joau Kanselu, Rafael Gerreyru (Nunu Tavareş Mendeş, 71), Joau Palinya (Ruben Neveş, 46), Joau Moutinyu (kap;, Joau Mariu, 78), Brunu Fernandeş, Bernardu Silva (Edmilson Otaviu, 78), Dioqu Jota (Qonsalu Qvedeş, 78), Andre Silva. **Baş məşqçi:** Fernandu Santuş.

**Qrupun digər oyunu:** İrlandiya - Serbiya 1:1 (Milenkoviç, 87-öz qap.//S. Milinkoviç-Saviç, 20).

**Yoxlama oyun: Lüksemburq - Qətər 1:1** (Borceş Sançeş, 31//Əlamin, 43).

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Portuqaliya | 5 | 4 | 1 | 0 | 11-4 | 13 |
| 2. Serbiya | 5 | 3 | 2 | 0 | 12-7 | 11 |
| 3. Lüksemburq | 4 | 2 | 0 | 2 | 5-8 | 6 |
| 4. İrlandiya | 5 | 0 | 2 | 3 | 5-8 | 2 |
| 5. Azərbaycan | 5 | 0 | 1 | 4 | 3-9 | 1 |

***Təqvim***

***9 oktyabr (şənbə):*** *Azərbaycan - İrlandiya, Lüksemburq - Serbiya, Portuqaliya - Qətər.*

***12 oktyabr (çərşənbə axşamı):*** *Portuqaliya - Lüksemburq, Serbiya - Azərbaycan, Qətər - İrlandiya.*

***11 noyabr (çərşənbə axşamı):*** *Azərbaycan - Lüksemburq, İrlandiya - Portuqaliya, Serbiya - Qətər.*

***14 noyabr (bazar):*** *Lüksemburq - İrlandiya, Portuqaliya - Serbiya, Azərbaycan - Qətər.*

# Yaşar Əlibaba oğlu Babayev



Azərbaycan idman ictimaiyyətinə ağır itki üz verib. Tanınmış idman veteranı Yaşar Babayev 2021-ci il sentyabrın 12-də, ömrünün 81-ci ilində vəfat edib.

Yaşar Əlibaba oğlu Babayev 21 aprel 1941-ci ildə Gəncə şəhərində, dəmiryolçu ailəsində doğulub.

Futbol oynamağa uşaq yaşlarından Gəncənin "Lokomotiv" komandasında başlayıb. 1960-cı ildən Valentin Xlıstovun rəhbərliyi altında peşəkar futbola cəlb edilən Yaşar Babayev iki il Gəncənin "Toxucu" futbol komandasının şərəfini qoruyub.

Y.Babayev 1963-1971-ci illərdə "Neftçi" futbol komandasının heyətində çıxış edib. 1966-cı ildə Bakı komandasının heyətində SSRİ çempionatının bürünc medalını qazanıb.

SSRİ çempionatlarında 200, kubok yarışlarında isə 19 görüşdə meydana çıxıb.

Futbolçu karyerasını başa vurduqdan sonra məşqçi-müəllim kimi fəaliyyət göstərən Yaşar Babayev uzun müddət Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında futbol mütəxəssislərinin hazırlanması üçün yorulmadan çalışıb.

Yaşar Babayevin əziz xatirəsi onu tanıyanların və idman ictimaiyyətinin qəlbində daim yaşayacaq.

Allah rəhmət eləsin!

***Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi***

# "Qarabağ" yeni yarışa evdə başlayacaq

***Dalbadal 8-ci dəfə Azərbaycanı Avropa klub kuboku yarışında təmsil edəcək "Qarabağ" futbolumuzun daha bir səhifəsini açır.***




İlk dəfə keçirilən Konfrans liqasının qrup mərhələsinə mərhələlərin çətin sınaqlarından keçən kollektiv qitəmiqyaslı yarışlarda milli uğurlar seriyasını bu dəfə bir qədər də uzada bilər. İlk dəfə Azərbaycan futbolu qitə miqyasında yeni ilini klub turnirinin pley-offu ilə aça bilər. Bu, reallıq aynasıdır. İlk öncə ona görə ki, rəqiblər Azərbaycan təmsilçisinə görə zəiflərdən olmasalar da, dişə çəkilənlərdəndirlər. İkinci ona görə ki, "Qarabağ" Avropa səhnəsində bu rəqiblərindən daha təcrübəlidir. Nəhayət, həm də ona görə ki, son illərdə transferlərinə görə söz tənqidi atəşinə tutulan Ağdam klubu bu dəfə həm də transferlərinin heyətə uyğunluğu, oturuşması və bütövləşməsi ilə seçilir. Bir sözlə, meydanda alayarımçıq deyil, əsl rəqabət gücü olacaq heyət görmək mümkündür.

**Konfrans liqası.**
**"H" qrupu.**
**1-ci tur**

***"Qarabağ" (Azərbaycan) - "Bazel" (İsveçrə)***

**16 sentyabr.** Bakı. Olimpiya stadionu.

**Qrupun digər oyunu:** "Kayrat" (Qazaxıstan) - "Omonia" (Kipr)



# "Qarabağ" iki-üç cəbhədə mübarizəyə hazır kimi görünür



(Əvvəli 1-ci səhifədə)

Ya kortəbii hücumlar, ya da qeyri-səlis və yaxud "tutar-tutmaz" prinsipi ilə axtarışlar davam edir. Halbuki onsuz da əsas vəzifəsi qol vurub geri çəkilmək olan rəqiblərin məhz məğlub durumu üçün bir düşünülmüş planını görmək məntiqli olardı. Bunun üçün hər bir klub güclü cəhətlərindən istifadə etməli, oyunçuların psixoloji durumundan tutmuş fiziki kondisiyasını, funksional imkanlarını tam bilməlidir. Amma reallıqda belə olmur.

Bu turun sürprizi "Qəbələ"dir. Mövsümün uduzmayan, həm də eyni xalla liderliyi ələ alan iki klubundan biri olan "Qəbələ" bu dəfə "Sabah"a növbəti əsaslı zərbəni vurdu. 2-ci hissədə iki qol vuran komandanın oyun tərzinə digər kollektivlərlə müqayisədə haqq qazandırmaq olar. Çünki mövsümə hazırlıq üçün ən az imkana malik olan kollektiv artıq neçənci ildir ki, meydanda nəinki duruş gətirir, hətta imkanlarından maksimum istifadə etməyi bacarır. Hər dəfə oyun planında heç bir rəqibindən geri qalmayan, yalnız cüzi elementlərə görə xal itirən "Qəbələ"nin bəxti bu dəfə gətirir. Təsəvvür edin ki, autsayderlikdə yer almalı olan kollektiv artıq xalsız qalan iki kollektivi 7 xal qabaqlayır və yaxın iki-üç turda bu tempi davam etdirmək şansı var. Bu isə böyük psixoloji dəstək və sürprizə açılan qapıdır.

Təbii ki, turun əsas qarşılaşması, ümumiyyətlə, mövsümün qədərini həll edənlərdən olan ilk "şah oyun" idi. Əsas heyət üzvləri ağır milli toplanışından qayıdan, hələ qarşıda Avropa Konfrans liqasında prinsipial rəqibi ilə üz-üzə olacaq "Qarabağ" "Neftçi"nin qonağı idi. Söz yox ki, cari mövsümdə bu iki komandanın heyəti müqayisəolunmaz həddə çatıb. Bütün mümkün yarışlarda iflası iflasa calayan "Neftçi" özünü toparlamaq üçün bir şans əldə etmişdi. Lakin Qurban Qurbanov bu dəfə özü rəqibə sürpriz etdi; heç nədən çəkinmədən nəinki bərabər, hətta lider kimi rəqabətə hazır olduğunu əyani nümayiş etdirdi və Avropa arenasına çıxmaq ərəfəsində qüvvəsini əsirgəməyəcəyini göstərdi. Bəlkə də elə bununla "ağ-qaralar"ı şoka saldı. Onsuz da müdafiəsi bərbad vəziyyətdə olan, ələ gəlməyən "Neftçi" yenə öz ampluasında idi və fasiləyə qədər iki qolla canını qurtardı. Lakin iş ondadır ki, ikinci hissədə "Qarabağ" artıq qüvvəsini qorumaq niyyətini göstərməyə macal tapmamış həyəcan təbili yenə çalındı. Hesabdakı fərqin azalmasına baxmayaraq, Ağdam klubu inamla oyunun ipini ələ aldı. Söz yox ki, "Neftçi"nin şansları az deyildi. Amma elə "Qarabağ" da buna təpərli cavab verirdi. Bir sözlə, çempion ikinci hissədə nisbətən oynamağa başlasa da, bunu daha çox "Qarabağ"ın verdiyi fürsət və total təzyiqə keçməməsi ilə əlaqədləndirmək olar.

Çox maraqlıdır ki, prinsipial vəzifələri yerinə yetirmədikdən sonra heyətinə əl gəzdirən "Neftçi", bundan sonra üçün planlarını necə cızacaq? Hələlik üfüqdə parıltı görünmür. UEFA-nın çempionlara açdığı fürsətdən nəinki yararlana bilməyən heç buna cüzi cəhd də etməyən komandadan ciddi nəsə gözləməyə dəyməz. Lakin rəqiblər də heç bu fürsətdən yaralanmaq istəmirlər. Hətta ilk qələbəsini qazanan "Zirə" belə yenə formal olsa da, yeni simasına qovuşmaq istəmir. Komanda üçüncü turdur ki, fərqli obrazlarda görünür. Bu səbəbdən meydanda bəri başdan azacıq bəlli mənzərə planı cızılır. Hərçənd "Qəbələ"nin simasında göründüyü kimi.

Könül istərdi ki, tezliklə "Sabah"la "Keşlə" də heç olmasa, cüzi təpərə sahib olub mübarizəyə nisbi kəsər qatsınlar. Hər halda millinin oyunu səbəbilə növbəti fasiləyə qədər daha 3 tur oynanılacaq və o vaxta qədər yarış cədvəli bir az da sahmanlanacaq.

**BATI YAR**




## Futbol. Azərbaycan çempionatı. Premyer Liqa

### 3-cü tur

*11 sentyabr (şənbə)*

**"Keşlə" (Bakı) - "Zirə" (Bakı) 0:2** (Davit Volkov, 63, 72).

**"Sabah" (Bakı) - "Qəbələ" 0:2** (Yaovi Akakpo, 53, Ülvi İsgəndərov, 90+3).

*12 sentyabr (bazar)*

**"Səbail" (Bakı) - "Sumqayıt" 1:0** (Cabir Əmirli, 64).

**"Neftçi" (Bakı) - "Qarabağ" (Ağdam) 1:2** (Emin Mahmudov, 47//Vaci İbrahima, 21, 45).

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. "Qarabağ" | 3 | 2 | 1 | 0 | 6-2 | 7 |
| 2. "Qəbələ" | 3 | 2 | 1 | 0 | 6-3 | 7 |
| 3. "Səbail" | 3 | 2 | 0 | 1 | 2-3 | 6 |
| 4. "Sumqayıt" | 3 | 2 | 0 | 1 | 4-1 | 6 |
| 5. "Neftçi" | 3 | 1 | 1 | 1 | 5-5 | 4 |
| 6. "Zirə" | 3 | 1 | 1 | 1 | 4-3 | 4 |
| 7. "Keşlə" | 3 | 0 | 0 | 3 | 1-6 | 0 |
| 8. "Sabah" | 3 | 0 | 0 | 3 | 0-5 | 0 |

**Bombardir: 3 -** Davit Volkov ("Zirə").

# Azərbaycan Boks Federasiyasının iclası keçirilib



***"Tokio-2020" Yay Olimpiya Oyunlarının yekunu və növbəti Olimpiya yarışlarına hazırlıqla bağlı Azərbaycan Boks Federasiyasının (ABF) iclası keçirilib.***

Toplantıda ABF-in vitse-prezidentləri Süleyman Mikayılov, Rövşən Hüseynov, baş katib Nağı Səfərov, bütün yaş qrupları üzrə milli komandaların məşqçilər korpusu, aparıcı klub və cəmiyyətlərin məşqçi-müəllimləri, həmçinin yığma üzvləri iştirak ediblər.

İclası giriş sözü ilə açan S.Mikayılov Azərbaycan boksçularının Tokio Olimpiadasındakı çıxışını dəyərləndirib. O komandamızın Oyunlara 5 lisenziya qazanmasını yüksək qiymətləndirib: "Bu lisenziyaların koronavirus pandemiyası dönəmində əldə edildiyini nəzərə alsaq, bu, uğurdur. Çünki boksçularımız qaydalara əsasən 2020-ci ildə demək olar ki, hazırlıq keçmədilər. Yalnız zaldan kənarda fiziki məşqlərlə kifayətləndilər. Toplanışlarımız 2021-ci ilə təsadüf etdi. Düzdür, lazımi hazırlığı keçə bilməməyimizə baxmayaraq, biz "Tokio-2020"də daha çox medal gözləyirdik. Təmsilçilərimizdən Alfonso Dominges fəxri kürsüyə yüksəldi. Amma digərlərinə baxdıqda, Tayfur Əliyevin vyetnamlı boksçu ilə döyüşünü hamı izlədi. İdmançımızın necə mübarizəni dayandırmasının və ya uduzdurulmasının şahidi olduq. Dünya çempionumuz Cavid Çələbiyev də eyni halla üzləşdi. Bir dəqiqə belə dayanmadı, amma hakim haqsızlığı səbəbindən yarışla vidalaşdı. Məhəmməd Abdullayevin isə püşkdə bəxti gətirmədi. Özbəkistanlı dünya çempionu ilə qarşılaşdı və rəqib təcrübəsi hesabına mərhələ adladı. Dominges də finalın bir addımlığında büdrəyərək, bürünc medala sahib oldu. Onun da rəqibi çox titullu və təcrübəli idi. Yalnız Rio Olimpiadasının gümüş medalçısı Lorenzo Sotomayor yaxşı işləmədi. Bunu da hamı gördü".

Vitse-prezident boksda ölkəmizin Olimpiya tarixinin ən yüksək əyarlı medalçısı, "Rio-2016"nın finalçısı olan Sotomayorun artıq milli komandamızda çıxışını başa vurduğunu da açıqlayıb. O qeyd edib ki, Avropa Oyunlarında da 2 dəfə fəxri kürsüyə yüksələn 36 yaşlı idmançı artıq karyerasını başa vurub.

Ardınca növbəti Olimpiya tsikli ilə bağlı tapşırıqlarını verən S.Mikayılov məşqçilər və iclas iştirakçıları ilə fikir mübadiləsi də aparıb. O vurğulayıb ki, tituldan və addan asılı olmayaraq hansı çəki dərəcəsində aşağı yaş qruplarından gələn güclü boksçu varsa, sınaq döyüşlərindən sonra əsas heyət formalaşmalıdır: "Lakin bütün bunlara nəzarəti həmin yaş qrupları üzrə məşqçilər korpusu etməlidir. Mən onlara güvənirəm və inanıram ki, seçimlərini düzgün edirlər. Düzdür, bəzən hansısa söhbətlər yayılır. Amma birmənalı şəkildə deyirəm ki, Azərbaycan çempionatı ilə beynəlxalq yarışlar fərqlidir. Şahidi olduğum hadisəni söyləyirəm ki, ölkə çempionu olan bəzi boksçular xaricə çıxanda öz döyüşünü göstərə bilmirlər. Elə startdaca büdrəyirlər. Yaxud o, hazırlıq dönəmində 4-cü nömrəyə belə uduzur. Bu səbəblərdən baş məşqçilər düzgün seçim etməlidirlər. Uğurlarımızın daha da artacağına böyük ümid bəsləyirəm".

Federasiya rəsmisi komandalarımızla bağlı gələcək planlarını da açıqlayıb. O, məşqçi-müəllimlərə müraciət edərək deyib ki, hələlik çempionatlar keçirilmədiyindən hansının yığmaya layiq bildiyi boksçu varsa, həmin yaş qrupu üzrə baş məşqçiyə məlumat versinlər: "Qarşıda əsas yığmamızı Dünya, gənclərdən ibarət millimizi isə Avropa çempionatı gözləyir. Böyüklərdən ibarət komandamız tezliklə hazırlığa başlayacaq. Danışıqlar aparırıq və istəyirik ki, Şamaxı Olimpiya İdman Kompleksini bir növ özümüz üçün bazaya çevirək. Həmçinin planlarımıza rayon və kəndlərdə yeni boks bölmələrimizin açılması daxildir. Bununla bağlı yeni gənclər və idman naziri Fərid Qayıbovla görüşməliyəm Gənc boksçularımız isə artıq bu günlərdə yarışa yollanacaqlar".

Daha sonra çalışdırıcılar çıxış edərək, onları maraqlandıran suallara və problemlərin həllinə cavab alıblar.

ABF-nin baş katibi Nağı Səfərov isə komandamızın Olimpiadaya hazırlıq dönəmindən danışıb. O bildirib ki, ilin əvvəlində Beyləqanda başlayan məşqlər Olimpiadanın startı ərəfəsində İtaliyada yekunlaşıb: "Lakin etiraf etməliyik ki, pandemiya şəraitində məşqlər bəzən planlaşdırdığımız kimi olmadı. Boksçularımız son ildə cəmi bir beynəlxalq turnirdə iştirak etdilər. Buna baxmayaraq, Olimpiada ənənəmizi davam etdirərək yenə medal qazandıq".

O, oktyabrda Serbiyanın paytaxtı Belqradda start götürəcək dünya çempionatı barədə də danışıb. N.Səfərovun sözlərinə görə, yeni qaydalara əsasən, 13 çəki dərəcəsində gərgin keçəcək yarışın hazırlıqlarına tezliklə start veriləcək. Baş katib bəzi çəkilərdə sınaq döyüşləri üçün məşqçilərə müraciət edib: "Mundial yeni çəki dərəcələrində baş tutacaq. Bu səbəbdən də məşqçilər korpusunun üzərinə böyük yük düşür. Onlar kimin hansı çəkidə döyüşəcəyini müəyyənləşdirirlər. Məsələn, 48 kiloqramda hansı klubda güclü idmançılar varsa, sınaq görüşləri üçün çalışdırıcıya müraciət etsinlər. Bu digər çəkilərdə də istisna edilmir".

N.Səfərov sınaq görüşlərindən sonra Amin Kuşkov və Cəbrayıl Yelikovun da hələlik yığmalardan kənarda qaldığını qeyd edib. O vurğulayıb ki, bu boksçular Azərbaycan çempionatında özlərini göstərdikdən sonra yenidən düşərgəyə cəlb edilə bilərlər.

Sonda görüş iştirakçıları ölkə boksunun daha da inkişafı üçün müəyyən fikirlər səsləndiriblər. Problemlər müzakirə olunub, çıxış yolları barədə geniş müzakirələr aparılıb.

# İDMAN

№ 19 (7114) 14 sentyabr 2021


## Çimərlik güləşçilərimiz Avropa çempionatında 4 medal qazanıblar



***Yunanıstanın Katerini şəhərində çimərlik güləşi üzrə yeniyetmə və gənclərin Avropa çempionatı keçirilib. Qitə birinciliyində baş məşqçi Oyan Nəzəriani və məşqçi Ağahüseyn Mustafayevin rəhbərliyi altında 4 güləşçimiz mübarizə aparıb. Onların ikisi yeniyetmələr, ikisi isə gənclər arasında qüvvəsini sınayıb.***

Yeniyetmə güləşçimiz Musa Ağayev (60 kq) Moldova təmsilçisi və daha sonra 2 ispaniyalı rəqibinə qalib gələrək yarımfinala yüksəlib. Ukrayna güləşçisinə də heç bir şans tanımayan M.Ağayev adını finala yazdırıb. Həlledici görüşdə yenidən Moldova təmsilçisi ilə üz-üzə gələn M.Ağayev bu görüşdə də tam üstünlüklə qələbə qazanaraq Avropa çempionu olub.

Hüseyn Əliyev (70 kq) təsnifat mərhələsində Türkiyə güləşçisini mübarizədən kənarlaşdırıb. Yunanıstanın iki təmsilçisinə qalib gələn həmyerlimiz Moldova idmançısını sonuncu xal prinsipinə əsasən üstələyib. İspaniyadan olan həmkarını xal vermədən məyus edən H.Əliyev finala vəsiqə qazanıb. Rumıniya güləşçisi ilə gərgin idman mübarizəsi şəraitində keçən həlledici qarşılaşmada minimal fərqlə uduzan H.Əliyev gümüş medal əldə edib.

Gənclər kateqoriyasında çıxış edən güləşçimiz Rübail İbrahimli (70 kq) Bolqarıstan, Norveç və Yunanıstan güləşçilərindən güclü olub. Ancaq yarımfinalda türkiyəli rəqibinə minimal fərqlə uduzub. Ruhdan düşməyən R.İbrahimli bolqar rəqibinə növbəti dəfə qalib gələrək Avropa çempionatının bürünc medalına sahib çıxıb.

Fərid Cabbarov (80 kq) Avropa çempionatına Portuqaliya idmançısı üzərində qazandığı inamlı qələbə ilə start verib. Gənc pəhləvanımız daha sonra Yunanıstanın iki güləşçisi ilə qarşılaşıb. Onlardan birinə qalib gələn F.Cabbarov digərinə məğlub olub. Ancaq bu məğlubiyyət onun yarımfinala yüksəlməsinə əngəl olmayıb. Ukrayna təmsilçisini üstələyən idmançımız finala adlayıb. Həlledici görüşdə həmyerlimiz üçüncü turda məğlub olduğu Yunanıstan güləşçisi ilə üz-üzə gəlib. Finalda yerli idmançıdan revanşı alan F.Cabbarov Avropa çempionu olub.

Beləliklə, millimiz Avropa çempionatında uğurlu çıxış edərək 2 qızıl, 1 gümüş və 1 bürünc medal qazanıb.

## Taekvondo Federasiyasında məşqçi-müəllimlərin heyətində dəyişiklik edilib

Azərbaycan Taekvondo Federasiyasının idarə heyətinin növbəti toplantısı keçirilib. Toplantıda məşqçi-müəllimlərin fəaliyyəti və "Tokio-2020" Yay Olimpiya Oyunlarında taekvondoçuların çıxışı müzakirə olunub. Verilən qərara əsasən, məşqçi-müəllimlərin heyətində müəyyən dəyişikliklər olunub. Belə ki, kişilərdən ibarət milli komandanın baş məşqçisi Reza Mehmandost, köməkçi məşqçi Sənan Həşimov, qadınlardan ibarət yığmanın baş məşqçisi Səbuhi Zülfüqarov, köməkçi isə məşqçi Rəşad Məmmədov təyin olunublar.

Gənclərdən ibarət millinin baş məşqçisi Məmməd Abdullayev, köməkçi məşqçi Zahid Məmmədov, yeniyetmələrdən ibarət yığmanın baş məşqçisi Elnur Amanov, köməkçi məşqçi Vurğun Cəfərov, 21 yaşadək idmançılardan ibarət milli komandanın baş məşqçisi Ələkbər İmaməlivev, köməkçi məşqçi isə Vüqar Məcidov təyin ediblər.

## Gənc taekvondoçularımız Avropa birinciliyinə hazırlaşırlar

Taekvondo üzrə gənclərdən ibarət milli komandamız təlim-məşq toplanışına start verib. Məşqlər iki hissədən ibarətdir. Belə ki, sentyabrın 16-dək hazırlıq prosesinin birinci hissəsi keçiriləcək. Bu mərhələdə idmançılar əsasən, ümimi fiziki hazırlıq keçəcəklər. Sentyabrın 20-dən isə ikinci hissəyə start veriləcək.

Təlim-məşq toplanışı Avropa birinciliyinə hazırlıq məqsədi daşıyır.

## Cüdoçumuz Avropa çempionatında gümüş medala sahib olub

***Azərbaycan cüdoçuları Lüksemburqda yeniyetmələr arasında keçirilən Avropa çempionatında iştirak ediblər.***

Yarışda təmsilçilərimizdən qızlar arasında 48 kiloqram çəki dərəcəsində mübarizə aparan Aydan Vəliyeva uğur qazanıb. İdmançımız ispaniyalı Eva Peres və portuqaliyalı Raquel Britonu məğlub edərək yarımfinala çıxıb. Yarımfinalda israilli Sindi Vainşteyn üzərində qələbə qazanan cüdoçumuz finala yüksəlib. Həlledici mərhələdə rusiyalı İrena Xubulovaya uduzan A.Vəliyeva yarışı ikinci sırada başa vurub və gümüş medal qazanıb.

Avropa çempionatında 43 ölkədən 350-dən çox cüdoçu iştirak edib.

## Yaponiya yenə olimpiadaya iddialıdır

***Tokio Yay Olimpiya və Paralimpiya Oyunlarının Təşkilat Komitəsinin rəhbəri Seyko Haşimoto 2030-cu il Qış Olimpiya Oyunlarının Sapporoda keçiriləcəyinə ümid etdiyini bildirib.***



Bu barədə "Inside the Games" portalında məlumat verilib.

O, qeyd edib ki, 2030-cu il Qış Olimpiya Oyunlarına ev sahibliyi etmək üçün Sapporonun namizədliyi çox ciddidir: "Ümid edirəm ki, bu reallığa çevriləcək və Oyunlar Sapporoda keçiriləcək. Bundan başqa, yaxın gələcəkdə yenidən Yaponiyanın Yay Olimpiya və Paralimpiya Oyunlarına ev sahibliyi edəcəyinə də ümid edirik".

Qeyd edək ki, Sapporo 1972-ci il Qış Olimpiya Oyunlarına ev sahibliyi edib. Növbəti Qış Olimpiya Oyunları 2022-ci ildə Pekində (Çin), 2026-cı ildə isə Milan və Kortina d'Ampezzoda (İtaliya) keçiriləcək.

## Formula 1 üzrə İtaliya Qran-prisinin qalibi məlum olub



Sentyabrın 12-də "McLaren" komandasının pilotu Daniel Rikkardo Formula 1 İtaliya Qran-Prisinin qalibi olub. "McLaren"nin digər pilotu Lando Norris yarışı ikinci, "Mercedes"in üzvü Valtteri Bottas isə üçüncü pillədə başa vurublar. Bununla da D.Rikkardo karyerasında səkkizinci qələbəsini qazanıb.

Pilotların siyahısına 226,5 xalla Maks Ferstappen ("Red Bull") başçılıq edir. "Mercedes"in pilotları Luis Hamilton (221,5 xal) və Valtteri Bottas (141 xal) ilk üçlüyü tamamlayıblar.

Konstruktorlar kubokunda "Mercedes" 362,5 xalla birincidir. Hesabında 334,5 xal olan "Red Bull" ikinci, "McLaren" isə 215 xalla üçüncü yerdə qərarlaşıb.

Qeyd edək ki, növbəti yarış iki həftə sonra Rusiyada təşkil olunacaq.

## Qılıncoynatma üçüncü Avropa Oyunlarının idman proqramına daxil edilib

Qılıncoynatma rəsmi olaraq 2023-cü ildə Polşada keçiriləcək Avropa Oyunlarının idman proqramına daxil edilib. Bu barədə Avropa Olimpiya Komitələrinin (AOK) mətbuat xidməti məlumat yayıb.

AOK ilə Avropa Qılıncoynatma Konfederasiyası arasındakı rəsmi razılaşmaya əsasən, Avropa Oyunlarında qılıncoynatma yarışları Avropa çempionatı statusu alacaq. Bununla da, yarışda 2024-cü ildə Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya xalları qazanılacaq.

Xatırladaq ki, üçüncü Avropa Oyunlarının 2023-cü il iyunun 21-dən iyulun 2-dək Polşada keçirilməsi planlaşdırılır.


Qəzetin təsisçisi Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyidir

Baş redaktor: Qabil MEHDİYEV

Ünvan: AZ-1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə, III mərtəbə. Telefon: faks: 510-53-10,
Web: www.azsport.az;
E-mail: idman@mys.az; Lisenziya: B235
Bank rekvizitlərimiz: h/h-AZ69AIIB33080019443300230103,
VÖEN: 1300432691, "Kapitalbank"ın Yasamal filialı, kod-200037,
VÖEN: 9900003611, Müxbir hesab: AZ37NABZ01350100000000001944

"İdman"ın kompüter mərkəzində yığılıb-səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
Tiraj: 1000 Sifariş: 1728
Qəzet hər həftənin çərşənbə axşamı günü çıxır.
Redaksiyaya daxil olan yazılar şərh edilmir və geri qaytarılmır.